# Ali təhsil müəssisələrində "Valeologiya"nın tədrisi vəziyyəti

**Elnarə Ataməli qızı İsmayılova**
*ARTİ-nin fəlsəfə doktoru proqramı üzrə dissertantı,*
*ADPU-nun Cəlilabad filialının "Sosial elmlər"*
*kafedrasının baş müəllimi*
**E-mail:** ismayilova.elnare.777@gmail.com

**Rəyçilər:** p.ü.e.d., prof. M.İ. İlyasov,
p.ü.f.d., dos. T.S. Paşayev

**Açar sözlər:** valeologiya, cəmiyyət, inteqrativ elm, təhsilalan, sağlamlıq, valeoloji təfəkkür, valeoloji şüur

**Ключевые слова:** валеология, общество, интегративная наука, образованный, здоровье, валеологическое мышление, валеологическое сознание

**Key words:** valeology, society, integrative science, educated, health, valeological thinking, valeological consciousness

XX əsrin ikinci yarısından başlayaraq, müxtəlif obyektiv və subyektiv, idarə olunmayan və müəyyən qədər, qismən idarə olunan amillərin təsiri nəticəsində cəmiyyətdə intensiv olaraq insanların sağlamlığının zəifləməsi meylləri müşahidə olunmağa başlamış, bu problem çox mühüm ictimai-pedaqoji aktuallıq kəsb etmiş və onun nəticələrinin aradan qaldırılması zəminində 1980-ci ildə "Valeologiya" adlı yeni bir elm sahəsinin meydana gəlməsinə obyektiv ehtiyac yaranmışdır.

Valeologiyanın XX əsrin 80-ci illərində yaranmasına baxmayaraq respublikamızda bu inteqrativ elm sahəsinə yalnız 20 ildən sonra diqqət yetirilməyə başlanılmışdır. Respublikamızda valeologiya və pedaqoji valeologiyaya həsr olunmuş ilk elmi məqalə isə yalnız 2002-ci ildə pedaqogika üzrə fəlsəfə doktoru, ADPU-nun dosenti H.A. Cəfərov tərəfindən yazılmışdır. O, Azərbaycanda ilk dəfə ümumi və pedaqoji valeologiyanı, həmçinin didaktogeniyanı tədqiqata cəlb etmiş və bu problemlərlə bağlı Azərbaycan və rus dilində 30-dan çox məqalə yazmış, proqramlar tərtib etmişdir. H.A. Cəfərov 2014-cü ildən "Ali məktəb tələbələrində sağlam həyat tərzinin formalaşdırılmasının nəzəriyyəsi və təcrübəsi" problemini doktorluq dissertasiyası səviyyəsində araşdırır. Onun pedaqoji mətbuatdakı silsilə məqalələri və konfranslarda, təhsil müəssisələrində ardıcıl çıxışları sayəsində bu olduqca aktual elm sahəsi ictimailəşdirilmiş, son nəticədə elmi-pedaqoji və psixoloji dövriyyəyə vəsiqə qazanmışdır.

İlk əvvəllər yeni elm sahəsi birmənalı qarşılanmamış, ona çox ehtiyatla yanaşılmış və müəyyən qədər ögey münasibət bəslənilmiş, sonralar isə şagirdlərin, tələbələrin, bütövlükdə təhsilalanların sağlamlığı və sağlam həyat tərzinə dair müxtəlif səpkili bir neçə məqalə yazılmışdır. Lakin 2009–2010-cu illərdən sonra valeologiya Azərbaycan alimlərinin diqqətini yavaş-yavaş cəlb etməyə başlamış, elmi məqalələr yazılmış, ADPU-da dosent H.A. Cəfərovun rəhbərliyi ilə magistr dissertasiyaları yerinə yetirilmiş, pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyaların işlənilməsinə və müvafiq tədqiqatların aparılmasına başlanılmışdır. Nəhayət, 12 ildən sonra, 2014-cü ildə Respublikamızda pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün valeologiyaya həsr edilmiş ilk dissertasiya müdafiə olunmuşdur. Belə ki, Nailə Fəxrəddin qızı Sərxanlı "Kiçik yaşlı məktəblilərin sağlam həyat tərzinin formalaşdırılmasının pedaqoji problemləri" mövzusunda pedaqogika üzrə fəlsəfə

doktoru dissertasiyasını yerinə yetirmişdir.

Onu da qeyd etmək lazımdır ki, valeologiyanın XX əsrin sonlarında təşəkkül tapmasına baxmayaraq yaşadığımız müasir dövrdə artıq, demək olar ki, müəyyən mənada valeoloji elmlər sistemi yaranmışdır və bu sistemin əhatə dairəsi getdikcə genişlənir: 1) ümumi valeologiya; 2) tibbi valeologiya; 3) pedaqoji valeologiya; 4) bədən tərbiyəsi və idman valeologiyası; 5) ailə valeologiyası; 6) yaş valeologiyası; 7) diferensial valeologiya; 8) peşəkar valeologiya; 9) xüsusi valeologiya; 10) ekoloji valeologiya; 11) sosial valeologiya.

MDB ölkələrində ümumi və pedaqoji valeologiya sahəsində müəyyən təcrübənin olmamasına baxmayaraq ilk dəfə "Valeologiya"nın seçmə fənn kimi tədrisinə 2007–2008-ci dərs ilindən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Coğrafiya və Çağırışaqədərki Hazırlıq fakültəsinin "Menecment" (ixtisas: 050407) şöbəsində (ixtisaslaşma fənləri üzrə) bakalavr pilləsində (əyani, II kurs) başlanılmışdır. Bundan əlavə, 2012/2013-cü tədris ilindən "Valeologiya" seçmə fənn qismində ADPU-nun magistratura şöbəsinin (əyani və qiyabi) tədris planına daxil edilmiş və onun tədrisinə müvafiq olaraq 30 saat (mühazirə - 20 s., seminar – 10 s.), 15 saat (mühazirə - 10 s., seminar – 5 s.) ayrılmışdır. Sonralar magistraturanın qiyabi şöbəsinin ləğvi edilməsi ilə əlaqədar burada valeologiyanın tədrisi dayandırılmşdır.

Respublikamızda valeologiya kursu ilk dəfə 2003-2004-cü dərs ilində Azərbaycan Müəllimlər İnstitutunda ixtisasartırma kurslarının proqramına salınmış, lakin mütəxəssis olmadığından bir neçə ildən sonra onun tədrisi dayandırılmışdır. Daha sonra valeologiya Bakı Şəhər Müəllimlərin İxtisasartırma İnstitutunda "Tibbi biliklər"in proqramına daxil edilmiş və onun tədrisinə cəmi 2 saat ayrılmışdır. Bu iki saatda isə valeoloji problemlər tibbi aspektdə, əslində isə tibbi valeologiya baxımından tədris olunmuşdur. Hazırda Respublikamızda "Ümumi və pedaqoji valeologiya", "Valeologiyanın aktual problemləri", " Pedaqoji valeologiya" bir fənn kimi ADPU-nun magistratura pilləsində tədris olunur. Bu fənlərin tədrisinə müvafiq olaraq 45 s. (30 saat mühazirə, 15 saat seminar), 30 s. (15 saat mühazirə, 15 saat seminar) və 45 s. (30 saat mühazirə, 15 saat seminar) ayrılmışdır.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin təsdiq etdiyi və Azərbaycan Dövlət Pedaqoji Universitetinin 12 oktyabr 2012-ci ildə qəbul etdiyi Tədris planında əyani tədris forması üzrə (ixtisas: 060117 – Məktəbəqədər təlim və tərbiyə; İxtisaslaşma: Məktəbəqədər təlim və tərbiyənin metodikası və metodologiyası) (ixtisas dərəcəsi: magistr) ixtisas (ixtisaslaşma) fənləri bölümündə ixtisaslaşma fənlərinə (fənnin şifri: MİFB10) həm Azərbaycan və həm də rus bölmələrinə ixtisas fənləri blokuna "Valeoloji təhsilin aktual problemləri" fənni daxil edilmiş və onun tədrisinə 45 saat (30 saat mühazirə və 15 saat seminar) (6 kredit) (payız semestri) ayrılmışdır. "Valeoloji təhsilin aktual problemləri" adlı fənn 2018/2019-cu ilə qədər tədris olunmuşdur.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin təsdiq etdiyi və Azərbaycan Dövlət Pedaqoji Universitetinin 25 may 2019-cu ildə qəbul etdiyi Tədris planında əyani tədris forması üzrə (ixtisas: 060117 – Məktəbəqədər təlim və tərbiyə; İxtisaslaşma: Məktəbəqədər təlim tərbiyənin metodikası və metodologiyası) (ixtisas dərəcəsi: magistr) ixtisas (ixtisaslaşma) fənləri bölümündə ixtisaslaşma fənlərinə (fənnin şifri: MİFB10) həm Azərbaycan və həm də rus bölmələrinə ixtisas fənləri blokuna yeni "Valeologiyanın aktual problemləri" fənni daxil edilmişdir. Lakin "Valeoloji təhsilin aktual problemləri"ndən fərqli olaraq hər iki bölmədə (Azərbaycan və rus) "Valeologiyanın aktual problemləri"nə cəmi 30 saat (15 saat mühazirə və 15 saat seminar) (4 kredit) ayrılmışdır. Fənn payız semestrinin sonunda imtahanla yekunlaşır (1, s. 11). Təqdirəlayiq haldır ki, müasir dövrün vacib tələbatlarından irəli gələn yeni inteqrativ elm sahəsi kimi valeologiya fənni ADPU-nun magistratura pilləsində 060119 ixtisasında da tədris

olunur.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin 12 oktyabr 2012-ci ildə qəbul etdiyi Kredit Sistemi üçün tədris planında əyani tədris forması üzrə (ixtisas: 060119 – Pedaqogika; İxtisaslaşma: Pedaqogika nəzəriyyəsi və tarixi) (mütəxəssisin ixtisası: magistr) seçmə fənlər bölümünə Azərbaycan və rus bölmələrinə "Ümumi və pedaqoji valeologiya" fənni (şifr: MİF-B05) daxil edilmiş və onun tədrisinə 45 saat (30 saat mühazirə və 15 saat seminar) (6 kredit) (3-cü semestr) ayrılmış və 2018/2019-cu dərs ilinə qədər tədris olunmuşdur.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin təsdiq etdiyi və Azərbaycan Dövlət Pedaqoji Universitetinin 25 may 2019-cu ildə qəbul etdiyi yeni Tədris planında əyani tədris forması üzrə (ixtisas: 060119 – Pedaqogika; İxtisaslaşma: Pedaqogika nəzəriyyəsi və tarixi) (mütəxəssisin ixtisası: magistr) seçmə fənlər bölümünə Azərbaycan və rus bölmələrinə "Ümumi və pedaqoji valeologiya" fənni (şifr: MİF-B05) daxil edilmiş və onun tədrisinə əvvəlki planda olduğu kimi 45 saat (30 saat mühazirə və 15 saat seminar) (6 kredit) (3-cü semestr) ayrılmışdır

"Ümumi və pedaqoji valeologiya"nin təqvim planında həm Azərbaycan və və həm də rus bölməsində (tövsiyə edilən ədəbiyyat əsasən fərqli olmaqla) aşağıdakı mövzuların tədrisi nəzərdə tutulmuşdur:

| № | Mövzular |
|---|---|
| 1. | "Ümumi və pedaqoji valeologiya" kursunun məqsəd və vəzifələri. Fənnin başlıca anlayışları |
| 2. | Valeologiya sağlamlıq və sağlam həyat tərzi haqqında elm kimi |
| 3. | Pedaqoji valeologiya, onun obyekti, predmeti, məqsədi, vəzifələri və digər elmlərlə əlaqəsi |
| 4. | Valeologiyanın metodoloji əsasları və valeoloji təhsil sisteminin quruluşu prinsipləri |
| 5. | Təhsil sistemində valeoloji xidmət |
| 6. | Təhsil müəssisələrində təhsilalanların sağlamlığının formalaşdırılması, təmin olunması və mühafizəsi |
| 7. | Təhsilalanların sağlam həyat tərzinin rasional təşkili |
| 8. | Sağlamlığın diaqnostikası və sağlamlıq səviyyəsini qiymətləndirmənin valeoloji aspektləri |
| 9. | Fiziki tərbiyə və təhsilalanların sağlamlığı |
| 10. | Təhsilalanların sağlamlığının rasional qidalanma ilə şərtlənməsi |
| 11. | Təhsilalanların sağlamlığının psixoloji əsasları. Didaktogeniya |
| 12. | Zərərli vərdişlərin pedaqoji profilaktikası: onların qarşısının alınmasının metod və vasitələri |
| 13. | Həyat fəaliyyətinin rasional təşkili |
| 14. | Müəllimin təhsilalanların sağlamlığının formalaşdırılması və təmin olunması üzrə fəaliyyətinin məzmunu. Müəllimin valeoloji kompetensiyaları |
| 15. | Azərbaycanda valeologiyanın təşəkkülü, tədqiqi, tədrisi və inkişaf istiqamətləri |

Təqdirəlayiq haldır ki, həm rus və həm də Azərbaycan dilində olan proqramlar kurkulumun tələbləri əsasında tərtib olunmuşdur, yəni təhsilalanlar konkret olaraq nəyi bilməli, nəyi bacarmalı və hansı bacarıqlara yiyələnməlidirlər. Əyanilik üçün bir nümunə veririk:

**MÖVZU 1.**
**"ÜMUMI VƏ PEDAQOJI VALEOLOGIYA" KURSUNUN MƏQSƏD VƏ VƏZIFƏLƏRI. FƏNNIN BAŞLICA ANLAYIŞLARI**

Valeologiya yeni inteqrativ elm sahəsi kimi. Valeologiyanın obyekti, predmeti, məqsəd və vəzifələri. Valeologiyanın yaranmasını şərtləndirən obyektiv və subyektiv amillər. İsrail İskoviç Brexman (20.11.1921 – 9.07.1994) valeologiya elminin banisi kimi. Valeologiyanın digər elmlərlə (fəlsəfə, tibb, psixologiya, pedaqogika, ekologiya, gigiyena, sosiologoya, iqtisadiyyat, bədən tərbiyəsi və s.) əlaqəsi. Valeologiyanın təşəkkülü və inkişafı. Valeoloji elmlər sistemi. Valeoloji elmlər sistemində pedaqoji valeologiyanın yeri. Təhsilalanların özlərini şəxsi sağlamlıqlarının təmin olunması, möhkəmləndirilməsi və mühafizəsinə cəlb edilməsi.

Pedaqoji valeologiyanın əsas anlayışları: sağlamlıq, sağlam həyat tərzi, sağlam həyat tərzinin komponentləri, valeoloji tərbiyə, valeoloji təhsil, valeoloji mədəniyyət, valeoloji təfəkkür, valeoloji şüur, valeoloji əqidə, valeoloji xidmət, valeoloji təhlil, valeoloji müşayiət və s.

***TƏHSİLALAN:***

***Bilməlidir:*** "Ümumi və pedaqoji valeologiya" kursunun məqsəd və vəzifələrini, fənnin başlıca anlayışlarını və məzmununu, təhsil müəssisələrində sağlam həyat tərzinin təşkili, təmin olunması və qorunması yollarını, sağlam həyat tərzi haqqında yeni inteqrativ elm sahəsi kimi "valeologiya"nın mövcudluğu, təşəkkülü və inkişafını; Azərbaycanda ümumi və pedaqoji valeologiyanın təşəkkülü, inkişafı, tədqiqi və tədrisi vəziyyətini

***Bacarmalıdır:*** təhsil müəssisələrində sağlamlıq işinin təşkili kursunun məqsəd və vəzifələrini, onun başlıca anlayışlarını izah etməyi

***Yiyələnməlidir:*** təhsil müəssisələrində "Ümumi və pedaqoji valeologiya" kursunun mahiyyətinə, təhsil müəssisələrində sağlamlıq işinin vacibliyini inandırma bacarığına (2, s. 10).

Beləliklə, son 30 ildə bütövlükdə ölkə əhalisinin, o cümlədən təhsilalanların, tədqiqat mövzusu baxımından xüsusilə tələbə gənclərin sağlamlığı, sağlamlıq durumu və sağlam həyat tərzi bir sıra obyektiv və subyektiv, nisbi idarə olunan və idarə olunmayan amillərlə şərtlənmişdir.

**Məqalənin aktuallığı.** Pedaqoji ali təhsil məktəb tələbələrinin, gələcək müəllimlərin sağlam həyat tərzinin formalaşdırılması təhsil müəssisəsində yaradılan şəraitlə, tədris planları, proqramları, dərsliklər və dərs vəsaitlərinin problem baxımından imkanlarının müəyyənləşdirilməsi və fənn müəllimlərinin məqsədyönlü fəaliyyəti ilə şərtlənir.

**Məqalənin elmi yeniliyi.** Geniş mənada bütövlükdə pedaqoji valeologiyanın elmi tədqiqatın obyekti kimi araşdırılnasından, nisbətən dar mənada isə pedaqoji ali təhsil müəssisələrində tələbələrin sağlam həyat tərzinin formalaşdırılması üzrə işin sistemi kimi aktual elmi-pedaqoji problemin qoyuluşu və həllindən ibarətdir.

**Məqalənin praktik əhəiyyəti və tətbiqi.** Ali pedaqoji təhsil müəssisələri şəraitində gələcək müəllimlərin tədris prosesində sağlam həyat tərzinin formalaşdırılmasının vasitə, üsul və texnologiyalarının tətbiqindən; tədqiqatın nəticələrinin tələbələrin ali məktəb mühitində sağlam həyat tərzinin formalaşdırıması prosesini təkmilləşdirməsindən ibarətdir. Azərbaycanda müasir tərbiyə nəzəriyyəsinin valeologiya, ümumi və pedaqoji valeologiya, sağlam həyat tərzi, sağlam həyat tərzinin formalaşdıırlması, hərəki fəallıq və s. kimi yeni paradima və terminlərlə zənginləşdirilməsinbdən ibarətdir.

## Ədəbiyyat

1. H.A. Cəfərov. Valeologiyanin aktual problemləri. Bakı: ADPU, 2020, s.
2. H.A. Cəfərov, E.A. İsmayılova. Ümumi və pedaqoji valeologiya. Bakı, ADPU, 2020, s. 10-13.

**Э.А. Исмайлова**

## Состояние преподавания валеологии в вузах

## Резюме

Статья посвящена проблеме состояния преподавания валеологии - новой интегративной науки в высшей школе. В современную эпоху, когда стратегической задачей в нашей стране является повышение уровня жизни населения, развитие человеческого капитала, проблемы формирования здорового образа жизни у студентов занимаются исследованиями и научно-валеологическими исследованиями во всех сферах образования. общественная жизнь обусловлена очень большими и важными потребностями.

**E.A. Ismayilova**

## The state of teaching valeology in higher education institutions

## Summary

The article is devoted to the problem of the state of teaching valeology, a new integrative science in higher education. In the modern era, when the strategic task in our country is to raise the living standards of the population, the development of human capital, the problems of forming a healthy lifestyle in students are involved in research and scientific-valeological research in all spheres of public life. conditioned by very large and important needs.

**Redaksiyaya daxil olub:** 16.04.2021